# İCTİMAİYYƏTLƏ ƏLAQƏ ŞÖBƏSİ ÜZRƏ 2012-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

Azərbaycanda təşəkkül tapan açıq informasiya siyasəti Təhsil Nazirliyinin fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir. Bu baxımdan ölkənin təhsil həyatında baş verən yeniliklərin operativ şəkildə ictimaiyyətə çatdırılmasında Təhsil Nazirliyin İctimaiyyətlə əlaqə şöbəsinin üzərinə mühüm vəzifələr düşür.

2012-ci ildə İctimaiyyətlə əlaqə şöbəsi tərəfindən dövlətin təhsil siyasətinə uyğun olaraq, görülən işlər, aparılan yeniliklər və mühüm tədbirlərlə bağlı ictimaiyyətin məlumatlandırılması işi həyata keçirilib. Qeyd olunan sahədə işin yüksək səviyyədə təşkili şöbənin prioritet fəaliyyət istiqaməti olub.

Cari ildə Təhsil Nazirliyinin internet saytının təkmilləşdirilməsi, bütün bölmələrin məlumatlarla təmin edilməsi və texniki imkanların daha da yaxşılaşdırılması istiqamətində lazımi işlər aparılıb. Bu il ərzində Təhsil Nazirliyinin xətti ilə keçirilmiş bütün tədbirlər, ümumilikdə təhsil sahəsində baş verən yeniliklərlə bağlı 600-dən çox məlumat, press-reliz, rəsmi sənəd, habelə nazirliyin ayrı-ayrı struktur bölmələri tərəfindən şöbəyə təqdim olunan material və elanlar internet səhifəsində yerləşdirilib. Təhsilin bütün pillələrinə ayrıca yer verilən sayt davamlı olaraq yeniləşdirilib və internet səhifəsinin təhlükəsizliyi yüksək səviyyədə təmin olunub. Hazırda sayt Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərir.

Saytda, həmçinin "Müəllimlərin işə qəbulu" bölməsində ötən illərdə olduğu kimi, ümumtəhsil məktəblərində olan vakant yerlər haqqında məlumat və müəllimlərin işə qəbulunun nəticələri yerləşdirilib.

Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" fərmanına və Nazirlər Kabinetinin "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" qərarlarına uyğun olaraq Nazirliyin rəsmi internet saytına əlavə edilmiş "Elektron xidmətlər" bölməsi bu il daha da təkmilləşdirilib. Bölmə interaktiv və informativ xidmətlərin təmin olunmasına imkan yaradır, nazirlik rəsmiləri ilə vətəndaşların birbaşa əlaqələrinin yaradılması və ictimaiyyətin təhsillə bağlı normativ sənədlərlə tanışlığını asanlaşdırmaq məqsədi daşıyır.

İnteraktiv xidmətlər bölməsində ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu, xaricdə təhsil, informativ xidmətlər bölməsinə isə vətəndaşları daha çox maraqlandıran qərar, proqram, müvafiq qayda və siyahılarla bağlı linklər yerləşdirilib. Qeyd olunan bölmədə Təhsil Nazirliyinin rəhbər işçiləri ilə əlaqə, təhsil müəssisələri haqqında məlumat, təhsil müəssisələrinə qəbul qaydaları, şagird nailiyyətlərinin qiymətləndirilməsi, təhsil müəssislərinin dəyişmək qaydaları, de-institutlaşma və uşaqların müdafiəsi, nostrifikasiya qaydaları üzrə linklər daxil edilib.

2012-ci ildə Təhsil Nazirliyi ilə İctimai Televiziya və Radio Yayımları Şirkətinin birgə hazırladığı reklam çarxları "Təhsillə bağlı maarifləndirici reklam çarxları" adı altında saytın "Video" bölməsində 3 yeni video yerləşdirilib. Saytda, həmçinin hər ayın sonunda "Qaynar xətt" xidmətinə daxil olan müraciət və zənglər haqqında məlumatlar verilib.

Cari ildə ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatlar, əldə olunan uğurlar, ümumilikdə görülən işlər barədə şöbə tərəfindən ictimaiyyətə geniş məlumatlar verilib, müvafiq informasiyalar cəmiyyətə çatdırılıb. 2012-ci il ərzində Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin təhsil sahəsi üzrə sərəncam, fərman və qərarları, təhsil nazirinin müvafiq

əmrləri kütləvi informasiya vasitələrinin nümayəndələri üçün şərh edilib, onların bu barədə daha ətraflı məlumat alması üçün Nazirliyin struktur bölmə rəhbərləri ilə əlaqə yaradılıb.

2012-ci il ərzində Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin ictimaiyyətin məlumatlandırılması alt komponenti çərçivəsində bütün komponent və alt komponent koordinatorlarının görülmüş işlərlə bağlı televiziya kanalları, mətbuat və elektron KİV-də müsahibələri təşkil olunub və bu barədə Təhsil Nazirliyinin internet saytında, Nazirliyin mətbu orqanı olan "Azərbaycan müəllimi" qəzetində və digər pedaqoji mətbuat orqanlarında müntəzəm yazılar verilib.

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin ictimaiyyətin məlumatlandırılması alt komponenti çərçivəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə İctimai Televiziya və Radio Yayımları Şirkəti arasında imzalanmış müqaviləyə əsasən cari ildə də müvafiq işlər davam etdirilib. Belə ki, 2012-ci ildə 10 reklam çarxının mövzusu dəqiqləşdirilib, ssenarisi hazırlanıb və həmin reklam çarxlarından 4-nün çəkilişi başa çatdırılıb. Hazırlanmış çarxlar İctimai Televiziya kanalında yayımlanıb. Telekanalın "Açıq dərs" tok-şousunda milli təhsilin problemləri, dünyaya çıxış imkanları, elm və təhsilin qarşılıqlı vəhdəti, təhsildə keyfiyyətin idarə olunması, müəllimlərin işə qəbulu, İKT-nin təhsildə tətbiqi, habelə təhsilin digər bu kimi sahələri üzrə müzakirələr aparılıb, görülən işlərin səmərəliliyinin artırılmasına xidmət edən rəy və təkliflər səsləndirilib.

Təhsil Nazirliyi ilə "Azad Azərbaycan" Müstəqil Televiziya və Radio Verilişləri Şirkəti arasında imzalanmış müqaviləyə əsasən, qeyd olunan reklam çarxlarının bu televiziya kanalında da nümayişi təmin olunub.

Hesabat ilində Təhsil Nazirliyinin tabeliyində olan pedaqoji mətbuat orqanlarının fəaliyyətinin, yaradıcılıq imkanlarının daha da gücləndirilməsi işi həyata keçirilib. "Azərbaycan müəllimi" qəzetinin ümumi tərtibatında, məzmun və formasında bir sıra dəyişikliklər edilib. Ölkəmizdə təhsil siyasətinin həyata keçirilməsinə, çoxminli təhsil işçilərinin təhsil sahəsi üzrə həyata keçirilən islahat və yeniliklər barədə məlumatlandırılmasına xidmət edən bu mətbu orqanda mütəmadi olaraq pedaqoji ictimaiyyətin marağına səbəb ola biləcək yazılar dərc edilib. Cari ildə qəzetdə "Dünya təhsili" layihəsi davam etdirilib, "Dünyanın təhsil yenilikləri", "Dünya ölkələrində ali məktəblərə qəbul" adlı yeni layihələr oxuculara təqdim olunub. Bu layihələr çərçivəsində oxuculara geniş və əhatəli məlumatlar, dolğun yazılar təqdim olunub. Həmin yazılar, ümumilikdə ölkə ictimaiyyətini, xüsusən də gəncləri dünya ölkələrinin təhsil sistemində baş verən yeniliklər, aparılan tədqiqatlar, qabaqcıl texnologiyaların tətbiqi, bir sıra dünya ölkələrinin ali təhsil müəssisələrinə qəbul qaydaları barədə məlumatlandırmağa xidmət edir. Ümumilikdə, qəzetdə təhsil siyasəti üzrə reallaşdırılan tədbirlər öz əksini tapıb.

2012-ci ildə "Azərbaycan müəllimi" qəzetinin saytı yenidən təkmilləşdirilərək istifadəyə verilib. Mətbu orqanın saytında dizayn baxımından dəyişikliklər aparılıb və istifadəçilərə istənilən məlumatları əldə etmək üçün əlverişli imkan yaradılıb. Bu ildə də sayta yeni bölmələr əlavə olunub. "Dünya təhsili" adlı yeni bölmədə dünya ölkələrinin təhsil sistemi haqqında qəzetdə dərc olunan materiallar yerləşdirilib.

Hazırda "Azərbaycan müəllimi" qəzeti saytının yenidən təkmilləşdirilməsi işi aparılır və 2013-ci ildə saytın yeni versiyasının istifadəyə verilməsi nəzərdə tutulur.

2012-ci ildə Təhsil Nazirliyinin fəaliyyəti ilə bağlı ictimaiyyətin məlumatlandırılması işinin yaxşılaşdırılması məqsədilə "525-ci qəzet"lə əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqaviləyə əsasən bu mətbu orqanda təhsil sahəsində görülmüş işlərə, müxtəlif problemlərə dair yazıların dərc olunması təmin olunub.

Hesabat ilində şöbənin fəaliyyət planına uyğun olaraq, “Dünyanın 100 ən yaxşı universiteti” kitabı işıq üzü görüb. Kitabda “Azərbaycan müəllimi” qəzetində dərc olunmuş 100 ən nüfuzlu dünya universiteti haqqında geniş və əhatəli məlumatlar əksini tapıb. Kitab ictimaiyyəti, xüsusən də gəncləri dünyanın nüfuzlu ali məktəbləri haqqında məlumatlandırmaq, xarici ölkələrdə ali təhsil alan azərbaycanlı gənclərin sayının artırılmasına dəstək vermək məqsədlərinə xidmət edir.

2012-ci il 19 oktyabr tarixində Gədəbəy rayonunda Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tanınmış pedaqoq, professor Qoşqar Əhmədovun 95 illik yubileyi ilə əlaqədar mərasimdə və Qazax, Ağstafa, Gədəbəy, Tovuz, Daşkəsən və Şəmkir rayonları təhsil işçilərinin iştirakı ilə zona müşavirəsində şöbə tərəfindən televiziya kanallarının regional bürolarının əməkdaşlarının iştirakı təmin olunub.

2012-ci il 12-13 noyabr tarixlərində Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu, ATƏT-in Bakı Ofisi və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə “Dövlət qurumları ilə media arasında səmərəli əməkdaşlıq” mövzusunda seminar keçirilib. Seminarda şöbənin rəhbərliyi və əməkdaşı da yaxından iştirak edib.

Cari il ərzində təhsil siyasətinin həyata keçirilməsi və görülmüş işlər üzrə ictimaiyyətin vaxtında məlumatlandırılması məqsədilə Təhsil Nazirliyinin keçirdiyi əksər tədbirlərdə kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı təmin olunub. Eləcə də xüsusi əhəmiyyət kəsb edən məsələlərlə bağlı Təhsil Nazirliyi Mətbuat Xidmətinin məlumatı yayılıb, press-reliz, təqdimat və digər informasiya materiallarının KİV-ə operativ çatdırılması təmin edilib. Şöbə, həmçinin elektron və mətbu KİV-də verilmiş təhsilə dair yazıların gündəlik xülasəsini hazırlayıb, Nazirliyin bu və ya digər məsələ ilə bağlı mövqeyinin işıqlandırılmasını təmin edib.

Şöbə Nazirlikdə müvafiq normativ sənədlərin hazırlanmasında rəy və təkliflərini bildirib, “Qaynar xətt” xidmətinin işində yaxından iştirak edib. Şöbə, həmçinin yeni dərs ilinin başlanması, “Son zəng” və digər mühüm əhəmiyyətli günlərlə bağlı qəbul edilən mühüm qərarlar, imzalanan əmrlər barədə ictimaiyyətə vaxtında məlumatlar verib, bu da həmin tədbirlərin Təhsil Nazirliyinin müvafiq qərar və tövsiyələrinə uyğun təşkilinə zəmin yaradıb.

Təhsil siyasətinin həyata keçirilməsinə dair ictimaiyyətin daha mütəşəkkil olaraq məlumatlandırılması məqsədilə şöbə tərəfindən Nazirliyin və Nazirliyə tabe qurumların əməkdaşlarının, təhsil sahəsi üzrə bir sıra tədbirlərdə iştirak üçün ölkəmizə səfər etmiş nümayəndə heyətlərinin, beynəlxalq məsləhətçilərin müxtəlif televiziya və radio verilişlərində iştirakı, onların 800-dək müsahibəsi təşkil olunub. Həmçinin, şöbə tərəfindən müxtəlif televiziya kanallarında yayımlanacaq süjetlər üçün informasiyalar verilib. Təhsil Nazirliyinin struktur bölmə rəhbərlərinin və digər əməkdaşların təhsillə bağlı qanun, normativ-hüquqi aktları şərh etməsi, bu və ya digər məsələlərə münasibət bildirməsi, müxtəlif mətbuat orqanlarında Nazirliyin mövqeyinin işıqlandırılması üzrə çıxışları təmin olunub.

2012-ci ildə şöbədə sənədlərin icrası, rəy və təkliflərin hazırlanması işi həyata keçirilib. Hesabat ilində şöbəyə 80 məktub və ərizə daxil olub. Məktublar əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, Ombudsman Aparatından, Xüsusi Dövlət Mühafizə Xidmətindən, eləcə də qəzet, agentlik, müxtəlif təşkilat və vətəndaşlar tərəfindən ünvanlanıb. Şöbəyə daxil olmuş 4 informasiya sorğusu qanunvericilikdə müəyyən edilmiş müddətdə cavablandırılıb, sorğu müəllifinə elektron poçt və ya məktub vasitəsilə cavab göndərilib. Eyni zamanda şöbədə hər gün vətəndaşlar və kütləvi informasiya vasitələri nümayəndələri tərəfindən daxil olan telefon zənglərinin cavablandırılması və müvafiq şöbələrlə əlaqə yaradılması işi həyata keçirilib.

2012-ci ildə Təhsil Nazirliyi xətti ilə keçirilmiş iclas, görüş, müşavirə və konfranslar, ümumilikdə bütün tədbirlər foto və videolentə köçürülərək şöbədə yaradılmış arxivdə saxlanılır. Həmin fotolardan Təhsil Nazirliyinin internet saytında, "Azərbaycan müəllimi" qəzetində, habelə təhsil sahəsinə dair kitabların nəşrində istifadə olunur.

**2013-cü il üçün nəzərdə tutulan fəaliyyət istiqamətləri.**

1. KİV-lə əməkdaşlığın səmərəliliyinin artırılması;
2. Ölkənin təhsil sistemində aparılan dəyişikliklərlə bağlı ictimaiyyətə geniş məlumat verilməsi işinin daha da gücləndirilməsi; Təhsil Nazirliyi əməkdaşlarının televiziya kanallarında hazırlanan təhsillə bağlı mövzuları əhatə edən tok-şoularda iştirakının, müvafiq süjetlərdə Nazirliyin mövqeyinin verilməsinin təmin edilməsi; təhsil sahəsində tanınmış mütəxəssislərin fikirlərinin televiziya efirində və mətbuat səhifələrində işıqlandırılmasının təşkili;
3. Təhsil Nazirliyinin rəsmi internet səhifəsinin dizayn və tərtibatının işlək halda saxlanılması, mütəmadi olaraq yeniliklərə dair məlumatlar yerləşdirilməsi və saytın daha da təkmilləşdirilməsi;
4. Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqə şöbəsi və "Azərbaycan müəllimi" qəzeti əməkdaşlarının bilik və bacarıqlarının təkmilləşdirilməsi, onların peşəkarlıq səviyyələrinin yüksəldilməsi məqsədilə müvafiq seminarlarda iştirakının təmin edilməsi, tədris səfərlərinin təşkili;
5. "Azərbaycan müəllimi" qəzetinin və Nazirliyə tabe olan digər pedaqoji mətbu orqanların yaradıcılıq imkanlarının genişləndirilməsi istiqamətində müvafiq addımların atılması;
6. "Azərbaycan müəllimi" qəzetində "Dünya təhsili", "Dünyanın təhsil yenilikləri" və "Dünya ölkələrində ali məktəblərə qəbul" layihəsi çərçivəsində dərc olunan yazıların davam etdirilməsi;
7. "Azərbaycan müəllimi" qəzeti saytının təkmilləşdirilməsi.